# Ömrün 50-ci pilləsi



**Bir az əvvəl vidalaşdığımız mart ayı bayramlarla zəngin oldu: Beynəlxalq Qadınlar Günü, Milli Teatr Günü, Novruz bayramı, Beynəlxalq Poeziya Günü, Beynəlxalq Teatr Günü!.. Mart ayı Lənkəran Şəhər Mədəniyyət və Turizm Şöbəsinin müdiri Vasif Fərzullayev üçün həm də 50 yaşının tamam olması ilə yadda qaldı. Nə qədər telefon zəngləri oldu, təbriknamələr gəldi...**

Fərzullayev Vasif Məmmədrahim oğlu 1959-cu il martın 29-da ziyalı ailəsində anadan olub. ADMİU-nun mədəni-maarif fakültəsini bitirib. Mədəniyyət sahəsində müxtəlif vəzifələrdə (rayon mədəniyyət evinin bədii rəhbəri, şəhər mədəniyyət evinin bədii rəhbəri və direktoru, şəhər mədəniyyət sarayının direktoru) çalışıb.

2000-ci il sentyabrın 14-dən Lənkəran Şəhər Mədəniyyət, 2006-cı ildən Mədəniyyət və Turizm Şöbəsinin müdiridir.

V.Fərzullayev şöbə müdiri vəzifəsində çalışdığı dövrdə bölgədə mədəniyyətin inkişafına xüsusi fikir vermiş, şəbəkənin genişləndirilməsinə, əmək intizamının gücləndirilməsinə, kadrların ixtisasının artırılmasına, istedadların aşkara çıxarılmasına, milli-mədəni irsimizin təbliğinə və qorunmasına hərtərəfli qayğı və diqqət göstərmişdir.

Bu müddət ərzində bölgədə şəhər və respublika səviyyəli çoxsaylı mədəni-kütləvi tədbirlər, müsabiqə, yubiley gecələri və görüşlər keçirilmişdir. Mədəni irsin qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması, turizmin inkişafı və s. bağlı həyata keçirilən işlər öz dolğunluğu və mükəmməlliyi ilə seçilmişdir.

Məhz bunları nəzərə alan möhtərəm nazirimiz 27 sentyabr 2008-ci il tarixində Beynəlxalq Turizm Günü ilə əlaqədar Bakı şəhərində keçirilən konfransda, turizmin təbliğində xüsusi fəallıq göstərdiyinə görə Lənkəran Şəhər Mədəniyyət və Turizm Şöbəsini "Azərbaycan regionlarının turizm resurslarının aktiv təbliğinə görə" Diplomu ilə mükafatlandırmışdır.

Çalışdığı dövr ərzində V.Fərzullayev həmçinin Lənkəran Şəhər İcra Hakimiyyəti və nazirliyin digər mükafat və tərifnaməsinə də layiq görülmüşdür.

V.Fərzullayev Yeni Azərbaycan Partiyasının Mədəniyyət və Turizm Şöbəsi üzrə təşkilatının sədridir.

Ailəlidir. 3 övladı var.

Yubileyi münasibəti ilə Vasif müəllimi ürəkdən təbrik edir, ona möhkəm can sağlığı, ailə səadəti, işlərində uğurlar diləyirik!

**TURAL**